***Nisə Bəyim***

# Mən vida etmədim ayrılıqlara

Mən vida etmədim ayrılıqlara,
Tutdum əllərini titrəyən qəmin...
Gözümü çəkmədim dərdin  gözündən,
Yığdım ürəyimə buludun, nəmin...

Yolların gözünü döydü yağışlar,
Damcılar iz saldı yanaqlarıma...
Bütün ümidini itirən yollar
Yorulub sarıldı ayaqlarıma...

Çəkib yumaqladım uzaqlıqları,
Qərib həsrətləri yaxın elədim...
Rüzgarın sevdalı yağışlarını
Günlərin üstünə şehtək çilədim...

Öpdüm, qoxuladım xatirələri,
Uçurtdum bir ovuc kəpənək kimi...
Mən vida etmədim ayrılıqlara,
Yol etdim ardınca yorğun qəlbimi...

Azərbaycan ordusu.-2019.-23 noyabr.-S.8.